# İnsan, cəmiyyət və zaman münasibətlərindən bəhs edən yeni kitab




"Elm və təhsil" nəşriyyatında nəfis tərtibatla çapdan çıxmış yeni kitab - "Mənzərə Sadıqovanın yaradıcılığında insan-cəmiyyət-zaman münasibətləri" adlanır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü, istedadlı şair-publisist Hikmət Məlikzadənin müəllif olduğu bu kitabda Milli Məclisin mətbuat xidmətinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, yazıçı-publisist Mənzərə Sadıqovanın "YaşaM" və "Qadınlar və kişilər" əsərləri təhlil olunur. Nəşrdə M.Sadıqovanın fəlsəfi görüşlərindən, sənətkarlıq xüsusiyyətlərindən bəhs edilir, müasirlərimizin mənəvi aləmini insan-cəmiyyət-zaman kontekstində işıqlandırmaq manerasından söhbət açılır.

Nəşrin elmi redaktoru filologiya elmlər doktoru, professor Şirindil Alışanlı, redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Tahir Orucovdur. "Mənzərə Sadıqovanın fəlsəfi yanaşmasında ədəbi hiss və həyat təzahürü", "Publisistik məharətin hüdudsuzluğu", "Müasir ədəbi prosesdə M.Sadıqovanın yeri" və digər sərlövhəli yazıların yer aldığı 160 səhifəlik bu monoqrafiya ədəbiyyatşünaslar, bakalavr, magistr, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulub.